

ƏLƏDDİN ƏZİMLİ

## AĞ GEYİMLİ BUDAQLAR

Bu ağac
qışda da yaşıldır,
yayda,
payızda da.
Yaz isə öz yerində.
Yarpaqları soluxmur
istidə,
sərt ayazda da.
Qar yağıb
bu gecə
bu ağacın üstünə.
Ağ geyimlı budaqların
ağırlıqdan
əyilib beli.
Yarpaqlar
itirib şuxluğunu.
Göz oxşayan ağacsa,
sakit-sakit gözləyir
xoş gününü -
əsdirməkçün
təravətli donunu...

## İKİ AN

Bu quşun
yarpaqların arasından süzülən
işıqlı nəğməsinə xoşdur.
Yanımdan ötüb keçən
bu qadının baxışları
nədən mənə çox doğmadır, tanışdır?
Xəyallar
dumantək bürüdü məni.
Qəfildən
quş da kəsdi
o Günəşli nəğməni.
Dikildi ağaca gözlərim.
Sonra da
qadını aradı hisslərim.
Artıq nə quş vardı,
nə də o qadın.
Həzinlik çökdü bağa,
başladım darıxmağa...

## TELEFON DANIŞIĞINDAN

Məndən
kömək gözləmə.
Özüm
ehtiyac içindəyəm
bu yad şəhərdə.
Hava soyuq,
gecə yarı olsa da,
hələ də küçədəyəm.
Evim yox, eşiyim yox,
daimi işim yox.
Gündüzlər dona girib
dilənirəm.
Gecələr sərxoş olub,
küçə-küçə,
dalan-dalan
veyillənirəm...

## PARKDA

Qətrə-qətrə
sızır qan,
ürəyimin çatından.
Amma nədənsə,
ölüm gecikir
nəvələrin bəxtından.
Nəvələrim
tutub əllərimdən
məni
parka aparır.
Yaxınlıqda
üstü qara örtüklü
bir maşın
dayanır qəfildən.
Görəsən,
kimdir gələn?..

## İNAM

Bu günə,
sabaha
inamını itirən
adamlar arasında
yaşamaq çətin.
Bələləri
bilmırəm nə qədərdir
içində hər millətin.
Onların
hər sözü,
hər kəlməsi haqsız.
Düşüncələri belə
sərhədsiz -
pəncərəsiz, qapısız...

## YAĞIŞLI GECƏ

Külək əsər
bir-birini
döyəcləyər budaqlar.

Çox darixar
ağacdan zorla qopub
ayrı duşən yarpaqlar.
Yağar
vədəsiz yağış,
külək qatar
bir-birinə dünyanı.
Sən də gəl,
çox vurnuxma
nəm yarpaqlar içində,
soyuqlarsan heç nədən.
Axtardığın kağızı -
yağış yuyan
yazdığım o məktubu
külək
çoxdan aparıb.
...İlıq Günəş
isitmək istəyir
sopsoyuq pəncərəni.
Səninsə,
xəbərin yox dünyadan.
Külək
yerli-dibli oğurlayıb
o yağışlı gecəni...

## ŞEİR

Şair
sözdən asılıb,
şeir
sözdən asılı.
Vərəq boş,
qələm işsiz.
Sözsə qopmur,
qopmaq istəmir
yapışdığı dayaqdan.
Dirsəklənib masaya
seyr edirəm bayaqdan...

## QÜRBƏT

Qürbətin
sonu yox.
Bəlkə d əqəriblərin
bundan
heç xəbəri yox.
Vətəni
tərk edəndə
minir
çiynınə qürbət.
Günü xoş keçsə belə,
dəhşətdi,
inan dəhşət.
Söykənıb
yad divara
boylanır ixtiyarsız.
Ovunmaqçün bir anlıq
nə doğma yuvası,
üz tutmaq üçün
qohumu-əqrəbası,
nə kəndi,
şəhəri yox...

## SƏBİR

Səbrim
özümdən böyük,
boyumdan uca.
Səbrimin havasına
yaşayıram, gəzirəm,
hərdən
şeir yazıram.
Ağrımı-acımı,
dərdlərimi qovuram
yaza-yaza.
Hər səhər
səbrimlə tutub əl-ələ
çıxıram
sərhədsiz bir yola...

## BULUDLAR

Göylər buludlu,
buludlar
tutqun və qəmli,
nəmlənib gözləri
Az keçmış
təzədən baxıram.
Göylər
yenə də buludlu,
aşağı torpaq.
Görən,
kimin və nəyin
dərdini çəkir
dolu buludlar
yağmazdan qabaq?..

## SAXTA NƏĞMƏ

Sənə
oxunan nəğmə
bildinmi,
saxta imiş?
Allah bilir
ahəngi neçə notda,
sözləri
neçə dildə imiş.
Oxudular,
getdilər.
bilmək olmaz,
bəlkə,
təzədən qayıtdılar...

## EŞQ

Eşq
bir yuxu
bürüyüb dünyanı.
Gözlər
görmür həqiqəti
qulaqlar
haqqı eşitmir.
Ayaqlar
gedir qarasına,
ilanlar
çəkinə-çəkinə
girir yuvasına.
Yağan
qardı, ya yağış,
bilinmir -
heç
ayağın altı belə
görünmür.
Eşq
hüdudsuz bulud
sarılıb göylərə
sıxlaşır ağır-ağır.
Kənarda duranlar
heç
özü də bilmir,
niyə darıxır...

## QAPISIZ EV

Evlər tikilir
qat-qat,
uca-yca.
Bəzəyir göyləri
ucaldıqca.
Yuxarı,
aşağı bax
ay zalım usta,
unutmusan, qısası.
Bu gözəlin -
gözəlliyin
hardandır qapısı?..